# ŞUŞA QLOBAL MEDİA FORUM

"4-cü Sənaye İnqilabı Dövründə Yeni Media"

**Şuşa, Azərbaycan**

**KONSEPSİYA SƏNƏDİ**

# ÜMUMİ BAXIŞ

Qlobal informasiya mühitinin modernləşməsi, qabaqcıl texnologiyaların media sahəsində geniş tətbiqi, ümumilikdə rəqəmsallaşma prosesləri dünya üzrə yeni və dinamik media mühitinin formalaşmasına gətirib çıxarmışdır. Bu proses mövcud sənaye tendensiyalarını sürətləndirir, yerli və beynəlxalq media subyektlərinin öz biznes modellərini yenidən nəzərdən keçirməsini şərtləndirir.

Texnoloji tərəqqi digər fəaliyyət sahələri ilə yanaşı media sənayesinə də ciddi təsir göstərir, köklü dəyişikliklərə səbəb olur, eləcə də yeni media məhsulları və xidmətlərinin formalaşmasına imkan yaradır. Həyata keçirilən islahatlar nəticəsində Azərbaycan mediası da fəaliyyət prinsiplərini müasir standartlar əsasında yeniləyir və qloballaşan dünyanın ehtiyaclarına cavab vermək, daha aparıcı mövqedə yer tutmaq məqsədilə yaradıcı ideyaların tətbiqi üzrə addımlar atır.

Dövrün yeni inkişaf mərhələsi olan “Sənaye 4.0” media ilə əlaqəli bir çox yeni anlayışları gündəmə gətirir və istər ənənəvi, istərsə də rəqəmsal media üçün müxtəlif çağırışları ehtiva edir.

Qlobal kontekstdə media mühitində müşahidə edilən tendensiyaların hərtərəfli təhlili, bu sahədə resursların gücləndirilməsi, media sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi və təkmilləşdirilməsi, innovativ təkamülün yaratdığı imkanların tətbiq mexanizmlərinin araşdırılması Qlobal Media Forumun hədəflərindəndir.

# FORUMUN MƏQSƏDİ

Müasir zamanda media dövlət quruculuğu, iqtisadiyyat, sosial, mədəni və digər müxtəlif sahələrin inkişafının təşviq edilməsində əhəmiyyətli rola malikdir. Bu səbəbdən yeni mediada məzmunun yaradılması, istehlakçı davranışı, media və biznes sektorları arasında əlaqələr, mediada innovasiyalar və bu istiqamətlərdə çoxtərəfli konstruktiv dialoqların qurulması həm media, həm də digər sahələrin inkişafında olduqca əhəmiyyətlidir.

Forum dünyanın müxtəlif ölkələrindən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, media azadlığı üzrə müdafiəçilər, beynəlxalq təşkilatların təmsilçiləri, həmçinin müasir dövrün qlobal problemləri üzrə alim və ekspertlər, dünyaca məşhur media simaları tərəfindən bu sahədə bir çox aktual mövzuların müzakirəsi üçün platforma rolunu oynayacaqdır.

Forumda ümumilikdə 200-dən çox xarici qonaq və yerli media nümayəndələrinin iştirakı nəzərdə tutulur.

# FORUMUN SESSİYALARI VƏ PANEL MÜZAKİRƏLƏRİN MÖVZULARI

## Forumda qlobal tendensiyaların təhlili və aktual suallara cavab tapılması məqsədilə müxtəlif sessiyalarda panel müzakirələri təşkil olunacaqdır:

### Sessiya 1. Medianın gələcəyi: Rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər və medianın rolu

***Sessiya çərçivəsində keçiriləcək panel müzakirənin mövzusu:***
*- Medianın gələcəyi: Ənənəvi media üçün növbəti addımlar; Rəqəmsal transformasiya diqqət mərkəzində.*

### Sessiya 2. Mediada investisiya və istehlak tendensiyaları

***Sessiya çərçivəsində keçiriləcək panel müzakirələrin mövzuları:***
*- Müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması;*
*- Yeni mediada istehlak tendensiyaları və media savadlılığı (dezinformasiya və feyk nyusla mübarizə üsulları).*

### Sessiya 3. Təhlükəsizlik məsələləri

***Sessiya çərçivəsində keçiriləcək panel müzakirələrin mövzuları:***
*- Jurnalistlərin təhlükəsizliyi.*

# FORUMUN SESSİYALARI VƏ PANEL MÜZAKİRƏLƏRİN MÖVZULARI

## SESSİYA 1

## Medianın gələcəyi: Rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər və medianın rolu

**Panel müzakirənin mövzusu:**

***- Medianın gələcəyi: Ənənəvi media üçün növbəti addımlar; Rəqəmsal transformasiya diqqət mərkəzində***

Rəqəmsal kommunikasiya və informasiya texnologiyalarının inkişafı qlobal informasiya cəmiyyətinin də inkişafını sürətləndirmiş, medianın dövrün tələblərinə uyğun müasirləşməsini şərtləndirmişdir. Bu sahədə olan qabaqcıl təcrübələr məlumatların qısa zaman ərzində müxtəlif üsullarla geniş auditoriyaya çatmasını mümkün edir. Qlobal informasiya mühitində məlumatların, eyni zamanda dezinformasiyanın sürətli və geniş yayılması, müxtəlif tərəflərlə düzgün kommunikasiya siyasətinin qurulmasını, xüsusən də ənənəvi media subyektlərinin iş prinsiplərinin yenilənməsini və fəaliyyətinin effektivliyinin artırılmasını, informasiya sənayesinin rəqəmsal transformasiyasını labüdləşdirir.

Son illərdə qlobal miqyasda əhəmiyyətli məsələlərə dair məlumatların effektiv və çevik şəkildə yayılmasının əhəmiyyəti isə xüsusilə nəzərə çarpır. Məlumatların düzgün formada, düzgün vaxtda və düzgün üsullarla kommmunikasiya edilməsi həm yerli, həm də qlobal gündəmdə böyük önəm kəsb edir.

Müasir dövrdə həm insanların ictimai şüurunda informasiyanın tutduğu yeri, həm də informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin həyatında olan əhəmiyyətli rolunu nəzərə alaraq, bu gün “media və kommunikasiya” özündə tamamilə yeni məna ehtiva edir, mediada alətlər, istehsalçı və istehlakçılar, həmçinin, müxtəlif proseslərdə medianın rolu davamlı dəyişir. Ənənəvi medianın yeni media növlərinə qarşı rəqabətdə xəbər mənbəyi kimi aktual qalma zərurəti jurnalistikada bir çox yeni anlayış, prinsip və mediada yeni məzmun növlərinin formalaşmasına əlverişli zəmin yaranır. Media sahəsində baş verən dəyişikliklər xəbərin hədəf kütləyə daha uğurlu çatdırılması üçün yeni jurnalistika növlərinin daha çox istifadəsinə, yeni trendlərin müxtəlif istiqamətlərdə geniş tətbiqinə zərurət yaradır.

Medianın qlobal şəbəkəyə inteqrasiya prosesi müxtəlif texnologiyaların vahid platformada birləşməsi və yeni məhsulların formalaşması, eləcə də informasiyanın eyni zamanda bir mənbədən müxtəlif üsul və texniki vasitələrlə yayılması prosesidir. Hazırkı multimedia mühitində onlayn media və digər internet platformaları müxtəlif mənbələrdən informasiyaya əlverişli və operativ çıxış imkanı verir və ictimaiyyətə təqdim olunan rəqəmsal məlumatların həcmi böyüyür.

Bu transformasiya daha çox insanın qarşılıqlı əlaqədə olması və ünsiyyət qurması, ictimai müzakirələrdə iştirakı üçün yeni və geniş imkanlar yaradır. Nəticədə müxtəlif proseslərdə medianın rolu əhəmiyyətli dərəcədə dəyişir, təsir imkanları genişlənir. İnkişaf tendensiyaları ənənəvi medianın iş prinsiplərinin və medianın rolunun yenidən nəzərdən keçirilməsi ilə bağlı suallar yaradır, medianın konsolidasiyası və konvergensiyasının sürətlənməsi ehtiyacını artırır.

Yeni vasitə və alətlərdən istifadə edərək böyük həcmli məlumatları toplama, onları daha effektiv şəkildə işləmə və aydın formada təqdim etmə, milyonlarla insana qısa zamanda məlumat ötürə bilmə imkanı jurnalistikaya ciddi təsir göstərir. Son illərdə daha çox istifadə edilən data jurnalistikası kimi müasir alt peşələr medianın transformasiyasının əsas göstəricilərindəndir.

Forum iştirakçıları tərəfindən bu sessiyada effektiv və səmərəli kommunikativ əlaqələrinin inkişafı, ənənəvi medianın bugünkü rolu və gələcəyi, yeni tendensiyalar fonunda jurnalistikada yaranan çətinliklər və aktuallaşan yeni istiqamətlər, eləcə də bu sahədə rəqəmsal alətlərin tətbiqinin yaratdığı nəticələr müzakirə ediləcəkdir.

**Panel müzakirənin mövzusu:**

***- Medianın gələcəyi: Ənənəvi media üçün növbəti addımlar; Rəqəmsal transformasiya diqqət mərkəzində***



MODERATOR

## Maria Ramos

Beynəlxalq xəbər aparıcısı, jurnalist

## ÇIXIŞÇILAR



### Oliver McTernan

Həmtəsisçi və direktor,
“Forward Thinking” şirkəti



### Dana Wolfe

Kanadalı amerikan jurnalist,
televiziya, sənədli film, podkast
və debat prodüseri



### Azər Xəlilov

Prezident, “Azad Azərbaycan” MTRK



### Prof. Paolo von Schirach

Prezident, Qlobal Siyasət İnstitutu (GPI);
Professor, Siyasi Elm və Beynəlxalq Münasibətlər,
Bay Atlantik Universiteti, Vaşinqton

# FORUMUN SESSİYALARI VƏ PANEL MÜZAKİRƏLƏRİN MÖVZULARI

## SESSİYA 2
**Mediada investisiya və istehlak tendensiyaları**

**Panel müzakirələrin mövzuları:**

***- Müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması***

***- Yeni mediada istehlak tendensiyaları və media savadlılığı (dezinformasiya və feyk nyusla mübarizə üsulları)***

Yeni media mühitində informasiyanın ötürülməsində vasitəçilik fəaliyyəti ənənəvi media subyektlərinin fəaliyyətindən fərqlənir. Müasir dövrdə audiovizual və çap mediasının ənənəvi media subyektləri kimi xəbərlərin əsas istehsalçısı olaraq qalmasına baxmayaraq, onlayn media xəbər istehsalına ayrılan kiçik investisiyalar ilə ənənəvi xəbər sənayesi və media biznes modellərinə meydan oxuyur. Bu vəziyyət mediada transformasiyanın sürətləndirilməsini şərtləndirir.

Rəqəmsal media vasitələrinin intensiv inkişafı çap mediasının tirajı, çapı, eləcə də digər media növlərinin xərc və gəlir strukturuna, ənənəvi mediada reklam bazarı və digər məsələlərə ciddi təsir göstərmişdir. Yeni media mühitində qeyri-xətti media istehlakı, yüksək interaktivlik, mobil qurğulardan istifadə, həmçinin kütləvi məzmunun yaradılmasında sərbəstlik ilə xarakterizə olunan auditoriya formalaşmışdır. Media istehlakının və kommunikasiyanın bu cür transformasiyası media subyektlərinin digər media növlərinə qarşı rəqabətliliyini qoruyub saxlaması üçün effektiv idarə edilməsi və investisiyaların cəlb edilməsi ilə bağlı yeni çağırışlar ortaya çıxartmışdır.  Bu yeni tendensiyalar fonunda mediada mühüm dəyişikliklərin tətbiqi üçün əlverişli zəmin yaranmışdır.

Qeyd edilən məsələlərlə yanaşı qlobal miqyasda məlumat ötürücülərinin sayının kəskin artdığı və məlumat bolluğunun müşahidə olunduğu zamanda media istehlakçılarının istəkləri və oxu vərdişləri də sürətlə dəyişir. Mediada şəffaflıq, doğrulama və etibar, mərkəzləşdirmə, açıq məlumat mənbələri kimi bir çox məsələlərin araşdırılması bu günün və gələcəyin media istehsalı və istehlakı məsələlərində  xüsusi əhəmiyyət kəsb edir.

Müasir dövrdə mediadan istifadə ilə bağlı əsaslı qərar qəbul etmək, mediadan və yeni texnologiyalardan istifadənin etik nəticələrini başa düşmək və ya məlumatları təhlil etmək bacarıqlarına malik media istehlakçılarının olması həm ictimaiyyətin düzgün məlumatlanmasında, həm də sağlam media mühitinin formalaşmasında xüsusi rol oynayır. Media savadlılığının artırılması yalan və ya yanlış məlumatların fərqləndirilməsi, zərərli və qeyri-qanuni onlayn məzmunun müəyyən edilməsi və onlara qarşı mübarizəyə, həmçinin media plüralizminə və müxtəlifliyinə töhfə verir.

Forumun sessiyasında iştirakçılar media məhsullarının istehsalı və istehlakı ilə bağlı dəyişən trendlər, mediada investisiya məsələləri, media savadlılığının peşəkar medianın inkişafında rolu, yeni mediada dəyər zəncirinin yaradılması və biznes modellərinin inkişafı ilə bağlı fikir mübadiləsi aparacaqlar.

**Panel müzakirələrin mövzuları:**

***- Müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması***




## MODERATOR

## Jaffar Hasnain

Xəbər aparıcısı, müxbir

## ÇIXIŞÇILAR



### Klaus Jürgens

Direktor,
“Economyfirst Limited London” şirkəti



### Mikhail Gusman

Baş direktorun birinci müavini,
Rusiyanın TASS İnformasiya Agentliyi



### Bora Bayraktar

Jurnalist, media meneceri, məruzəçi



### Dr. Neven Cveticanin

Təsisçi və prezident,
Strateji Araşdırmalar Forumu;
Serbiya Parlamentinin keçmiş deputatı

**Panel müzakirələrin mövzuları:**

***- Yeni mediada istehlak tendensiyaları və media savadlılığı (dezinformasiya və feyk nyusla mübarizə üsulları)***



**MODERATOR**

## Şəfəq Mehrəliyeva

Direktor, Kommunikasiya və Rəqəmsal Media Proqramı, ADA Universiteti

## ÇIXIŞÇILAR



**Clive Marshall**
Baş icraçı direktor, PA Media Qrup



**Matthias Lüfkens**
Təsisçi və baş icraçı direktor,
"DigiTips" Şirkəti



**Oubai Shahbandar**
Müdafiə analitiki



**Tinatin Berdzenishvili**
Baş direktor,
Gürcüstanın İctimai Televiziyası

# FORUMUN SESSİYALARI VƏ PANEL MÜZAKİRƏLƏRİN MÖVZULARI

## SESSİYA 3
**Təhlükəsizlik məsələləri**

**Panel müzakirələrin mövzuları:**

***- Jurnalistlərin təhlükəsizliyi***

Dünyada baş verən müxtəlif hadisələr fonunda qərəzsiz və faktlara əsaslanan xəbərlərin yayılması, eyni zamanda yanlış və çaşdırıcı məlumatların qarşısının alınması sağlam informasiya mühitinin yaranması üçün əsas şərtlərdəndir. Şübhəsiz ki, böhran vəziyyətlərində, habelə gözlənilməyən və ya proqnozlaşdırılması mürəkkəb olan fors-major hadisələr zamanı ictimaiyyəti məlumatlandırma mexanizmlərinin mövcudluğu, həmçinin hadisələr haqqında ilk mənbədən, dəqiq informasiyaların müvafiq kanallara çatdırılması üçün jurnalistlərin operativ və peşəkar fəaliyyəti xüsusi önəm daşıyır. Jurnalistlər qaynar nöqtələrdə, münaqişə zonalarında böyük təzyiq altında fəaliyyət göstərərək baş verən hadisələr haqqında dolğun informasiyaları toplamaq və yaymaqla mühüm missiyanı yerinə yetirirərək bir çox hallarda uzunmüddətli inkişaf, sülh perspektivlərini artırırlar.

Jurnalistikada önəmli ixtisas istiqamətlərindən biri olan "münaqişə jurnalistikası" ciddi insan hüquqları pozuntuları, hərbi cinayətlər və digər məsələləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa, beynəlxalq humanitar hüququn implementasiyası və onun pozulmasının qarşısının alınmasına xidmət edir. Bu baxımdan, jurnalistlərin peşə öhdəliklərini yerinə yetirmələri və cəmiyyətə xidmət etmələri üçün media nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi son dövrlərin əsas məsələlərindəndir. Bu məqsədlə jurnalistlərin təhlükəsizliyinin qorunması ilə bağlı müxtəlif qabaqcıl və uğurlu strategiyaların araşdırılması və hazırlanması, zəruri avadanlıqlarla təmin edilmələri ciddi zərurətdir.

Forumda bu sessiya üzrə iştirakçılar böhran vəziyyətlərinin kommunikasiya mexanizmlərinin təkmilləşdirilməsi, münaqişə zonalarında jurnalistlərin qarşılaşdığı təhlükə və çağırışlar barədə məlumatlılığın artırılması, peşəkar "münaqişə jurnalistikası"nın inkişafı və jurnalistlərin təhlükəsizliyinin qorunması məsələləri ətrafında müzakirə aparacaqlar.

**Panel müzakirələrin mövzuları:**

***- Jurnalistlərin təhlükəsizliyi mübarizə üsulları***



**MODERATOR**

## Reagen Des Vignes

Aparıcı, TRT World

**SPEAKERS**



### Prof. Gi Woong Jung

Müdir müavini, HK+ Milli Strategiyalar
Araşdırma Layihəsi Agentliyi;
Vitse-prezident, Koreya Siyasi Elm Assosiasiyası;
Professor, Hankuk Xarici Tədqiqatlar Universiteti



### Nigar Arpadarai

Milli Məclisin deputatı, Azərbaycan



### Claudia-Victoria Nicolae

Baş direktor,
AGEPRES - Rumıniyanın Milli İnformasiya
Agentliyi



### Vüqar Seyidov

Xüsusi müxbir,
AZƏRTAC İnformasiya Agentliyi